AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

İQTİSADİ ARAŞDIRMALAR ELMİ-TƏDQİQAT İNSTİTUTU

*Əlyazması hüququnda*

SAMİRƏ İNTİQAM QIZI ABDULLAYEVA

# AZƏRBAYCAN RESPUBLİKASINDA DEMOQRAFİK VƏZİYYƏTİN STATİSTİK QİYMƏTLƏNDİRİLMƏSİ VƏ PROQNOZLAŞDIRILMASI

5302.01- "Ekonometriya; İqtisadi statistika"

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2018**



Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Statistika və ekonometrika" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə elmlər doktoru, professor
**Sakit Məmədi oğlu Yaqubov**

**Rəsmi apponentlər:** iqtisad üzrə elmlər doktoru, professor
**Rövşən Rasim oğlu Quliyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Turan Tofiq qızı Aslanova**

**Aparıcı təşkilat:** ***Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi***

Müdafiə "23" noyabr 2018-ci il tarxidə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunda fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.052 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti, İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu.

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "23" oktyabr 2018-ci il tarixində göndərilmişdir.

***FD. 02.052 Dissertasiya***
***şurasının elmi katibi, i.ü.f.d.*** ***R.A.Hüseynov***

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı**. Azərbaycanda iqtisadi vəziyyətin köklü şəkildə dəyişməsi bir çox sahələrə təsir göstərmişdir. Belə ki, Azərbaycan cəmiyyətinin, onun sosial quruluşunun və institutlarının transformasiyası demoqrafik proseslərin dəyişiklikləri ilə müşahidə olunur. Bunların konteksində demoqrafiya sahəsində mövcud olan problemlərin həll edilməsi mühüm əhəmiyyətə malikdir. Demoqrafik proseslər hər bir ölkənin həm daxili, həm də beynəlxalq fəaliyyətində xüsusi önəm kəsb edir. Demoqrafik inkişaf problemləri iqtisadi problemlərlə sıx əlaqədə ölkə əhalisinin həyati maraqlarına, onun demoqrafik davranışına birbaşa təsir göstərir.

Müasir dövrdə Azərbaycanın demoqrafik proseslərində həm əlverişli, həm də qeyri-əlverişli meyllər müşahidə edilir. Ona görə də formalaşmış vəziyyətin statistik qiymətləndirilməsi və mövcud probemlərin həll edilməsinin səmərəli yollarının axtarilması vacibdir. Azərbaycan Respublikasının davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi, əhalinin təkrar istehsalının optimal səviyyəsinin formalaşdırılmasını tələb edir. Bu isə öz növbəsində ölkənin demoqrafik durumunun və onun inkişaf meylinin dəyişməsinə təsir edən amillərdən biri kimi, əhalinin təbii hərəkətinin yeri və rolunun düzgün qiymətləndirilməsini zəruri edir. Məlumdur ki, qeyd edilən bu mürəkkəb məsələlərin həll edilməsi ölkədə baş verən demoqrafik proseslərin inkişaf meyli, dinamikası və onun səbəbləri haqqında dərin və hərtərəfli məlumatların olduğu halda mümkündür. Lakin qeyd etmək lazımdır ki, ölkəmizdə əhalinin təbii hərəkətinin statistik qiymətləndirilməsi, onun informasiya təminatı və metodoloji məsələlərinə elmi ədəbiyyatda kifayət qədər rast gəlinmir. Odur ki, əhalinin təbii hərəkətini xarakterizə edən göstəricilər sisteminin təkmilləşdirilməsi və statistik təhlilin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi mühüm məsələlərdən biridir. Digər tərəfdən, əhalinin təbii hərəkətinin müasir vəziyyəti dövlət statistika xidməti qarşısında mühüm vəzifələr qoyur. Belə ki, ölkədə səmərəli və əsaslandırılmış sosial-demoqrafik siyasətin həyata keçirilməsi demoqrafik prosesləri xarakterizə edən göstəricilərin beynəlxalq müqayisəliliyinin təmin edilməsini də tələb edir. Ölkənin demoqrafik vəziyyəti müxtəlif ictimai hadisə və proseslərin qarşılıqlı əlaqəsinin nəticəsində formalaşır. Ona görə də demoqrafik proseslərin inkişaf meylinin və dinamikasının, ona təsir edən amillərin, həmçinin demoqrafik siyasətin nəticələrinin dərin və hərtərəfli statistik təhlili ölkə üçün mühüm nəzəri və praktiki əhəmiyyəti vardır. Bütün bu qeyd edilən məsələlərin həll edilməsi və demoqrafik proseslərinin kompleks qiymətləndirilməsi zəruriliyi dissertasiya mövzusunun seçilməsinə əsas vermişdir.

**Problemin öyrənilməsi səviyyəsi.** Demoqrafik proseslərin inkişafının nəzəri-metodolojı məsələləri, onun ölkənin sosial-iqtisadi həyatında rolu, eləcə



də bu sferada baş verən hadisələrin statistik qiymətləndirilməsinin bu və ya digər aspektləri bir sıra yerli və xarici alimlərin - Ş.M.Muradovun, S. M. Yaqubovun, R.Ş.Məmmədovun, Ə.İ.Əliyevin, M.Ə.Yusifovun, A.Y.Boyarskinin, Q.S.Kildışevın, İ.İ.Yeliseyevanın, L.L.Kozlovanın, M.M.Yuzbaşovun, A.Q.Volkovun, və s. tədqiqatlarında öz əksini tapmışdır.

Qeyd edilən problemin çoxşaxəliyini nəzərə alaraq demoqrafik proseslərin kompleks tədqiqi və statistik öyrənilməsi metodologiyasının beynəlxalq standartlara uyğunlaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

**Dissertasiya işinin məqsədi və vəzifələri**. Tədqiqatın məqsədi müxtəlif statistik metodların köməyi ilə Azərbaycan Respublikasında demoqrafik proseslərin inkişaf meyli və dinamikasını statistik qiymətləndirmək, onun təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməkdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinəyetirilməsi zəruri sayılmışdır:

- Ölkənin demoqrafik siyasətinin formalaşdırılmasında statisitikanın rolunu və onun nəzəri əsaslarını araşdırmaq,
- demoqrafik proseslərin statistik informasiya mənbələrini araşdırmaq və onların xüsusiyyətlərini müəyyən etmək,
- əhalinin təbii hərəkətini səciyyələndirən mövcud statistik göstəricilər sistemini araşdırmaq və onların təsnifatını işləyib hazırlamaq,
- Azərbaycan Respublikasında demoqrafik proseslərin inkişaf meylini və dinamikasını statistik tədqiq etmək,
-Ölkə əhalisinin təkrar istehsalının statistik qiymətləndirilməsinin prioritet istiqamətlərini müəyyən etmək,
-Azərbaycan Respublikasında əhalinin sayının modelləşdirilməsi və prognozlaşdırılmasını həyata keçirmək,
- Azərbaycanda demoqrafik proseslərin statistik qiymətləndirilməsinin təkmilləşdirilməsi istiqamətlərini müəyyən etmək.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyekti Azərbaycan Respublikasının əhalisi, predmeti isə əhalinin təbii hərəkəti və müxtəlif demoqrafik proseslərdir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** Azərbaycan Respublikasının normativ-hüquqi aktları, demoqrafik problemlər və onun statistik qiymətləndirilməsi məsələlərini tədqiq edən Azərbaycanın və bir sıra xarici ölkələrin iqtisadçı-demoqraf alimlərinin dəyərli elmi əsərləri, demoqrafik sferanın problemləri ilə məşğul olan beynəlxalq təşkilatların tövsiyyələri və s. təşkil edir.

İşdə nisbi və orta kəmiyyətlər, dinamika sıralarının təhlili, reqressiya- korrelyasiya və s.metodlardan geniş istifadə edilmişdir:

**Tədqiqatın mənbələri və informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin illik məcmuələri, ölkədə əhalinin siyahıya

alınması məlumatları, aidiyyatı beynəlxalq təşkilatların məlumatları, internet resursları və s. təşkil etmişdir.

**Tədqiqat işinin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- müasir dövrdə demoqrafik proseslərin statistik qiymətləndirilməsinin zəruriliyi, demoqrafik siyasətin formalaşdırılmasında onun rolu əsaslandırılmış və nəzəri aspektləri ümumiləşdirilmişdir,
- demoqrafik proseslərin statistik informasiya mənbələri araşdırılmış və onların xüsusiyyətləri müəyyən edilmişdir,
- əhalinin təbii hərəkətinin kompleks statistik təhlilinin zəruriliyi əsaslandırılmış və statistik göstəricilərin təsnifatı işlənib hazırlanmışdır,
- Azərbaycan Respublikasında demoqrafik vəziyyət təhlil edilmiş, onun inkişaf meyli və dinamikasının xüsusiyyətləri aşkar edilmişdir,
- ölkə əhalisinin təkrar istehsalının statistik qiymətləndirilməsinin prioritet istiqamətləri əsaslandırılımışdır,
- müasir statistik metodlar, xüsusilə reqressiaya-korrelyasiya təhlili əsasında əhalinin təkrar isrehsalı parametirlərinə bir sıra amillərin təsiri statistik qiymətləndirilmişdir,
- ölkədə əhalinin təkrar istehsalı prosesinin yaxşılaşdırılması və onun statistik təhlilinin prioritet istiqamətləri müəyyənləşdirilmişdir,
- mövcud olan məlumatlar bazası çərçivəsində ölkə əhalisinin sayının qisamüddətli proqnozu verilmişdir.

**İşin praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəticələrindən Azərbaycanda demoqrafik proseslərin, o cümlədən əhalinin təkrar istehsalı parametrlərinin yaxşılaşdırılması üzrə müvafiq proqramların, doğum və ölüm statistikasının təkmilləşdirilməsi və beynəlxalq müqayisəliliyin təmin edilməsi istiqamətlərinin hazırlanmasında analitik baza kimi istifadə edilə bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələrin tətbiqi.** Dissertasiya işinin əsas müddəaları və nəticələri ölkədə və xaricdə keçirilən elmi-praktiki konfranslarda məruzə edilmişdir. Dissertasiya işinin nəticə və təklifləri Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi tərəfindən qəbul olunmuş və tətbiq haqqında arayış alınmışdır (19 oktyabr 2018-ci il Arayış № 27).

Müəllif tərəfindən dissertasiya mövzusu üzrə 5 çap vərəqi həcmində 14 məqalə və tezis nəşr edilmişdir.

**Tədqiqat işinin quruluşu və həcmi**. Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Onun ümumi həcmi 135 səhifədən ibarətdir. İşdə 16 cədvəl, 3 sxem və 8 şəkil-qrafik verilmişdir. İstifadə olunmuş ədəbiyyat siyahısında 120 adda ədəbiyyat adı vardır.



## Dissertasiya işinin mündəricatı

Giriş.

**I Fəsil. Demoqrafik proseslərin statistik tədqiqinin nəzəri - metodoloji məsələləri.**

1.1. Ölkənin demoqrafik siyasətinin formalaşdırılmasında statisitikanın rolu və onun nəzəri əsasları.

1.2. Demoqrafik proseslərin statistik informasiya mənbələri və onların xüsusiyyətləri

1.3. Demoqrafik proseslərin statistik göstəricilər sistemi və onların hesablanması metodikası

**II Fəsil. Azərbaycan Respublikasında demoqrafik proseslərin inkişaf meylinin və dinamikasının statistik tədqiqi.**

2.1. Azərbaycan Respublikası əhalisinin sayı, tərkibi və dinamikasının statistik təhlili

2.2. Olkə əhalisinin təbii hərəkətinin statistik təhlili

2.3. Nigahın bağlanması və pozulmasının statistik qiymətləndirilməsi

**III Fəsil. Azərbaycanda demoqrafik proseslərin statistik qiymətləndirilməsinin təkmilləşdirilməsi istiqamətləri.**

3.1. Ölkə əhalisinin təkrar istehsalının statistik qiymətləndirilməsinin prioritet istiqamətləri

3.2. Azərbaycan Respublikasında əhalinin sayının modelləşdirilməsi və prognozlaşdırılması

**Nəticə**

**Ədəbiyyat**

## DİSSERTASİYA İŞİNİN QISA MƏZMUNU

**1.Demoqrafik proseslərin statistik tədqiqinin nəzəri - metodoloji məsələləri.** Hər bir dövlətin əhalisi öz tərkibinə görə yekcins deyil və zamana görə də dəyişkəndir. Ona görə də əhalinin inkişaf qanunauyğunluqları, onun tərkibinin dəyişməsi və digər xarakteristikaları konkret tarixi şərait nəzərə alınmaqla öyrənilməlidir.

Demoqrafik proseslərin optimallaşdırılması - bu yalnız müəyyən parametrlərə, əhalinin sayı və quruluşunun müsbət dinamikasına nail olmaq deyil, eləcə də insanların daim artan tələbatlarının tam ödənilməsi, fiziki və ruhi sağlamlığın daha yüksək səviyyəsinin təmin edilməsidir. Məhz bu məqsədlərə görə də demoqrafik siyasət həyata keçirilir.

Demoqrafik siyasət əhalinin təkrar istehsalının tənzimlənməsinə, onun optimal kəmiyyət və keyfiyyət xarakteristikalarına nail olmasına yönəldilən tədbirləri nəzərdə tutur ki, bu da öz növbəsində sağlam nəsilin təkrar istehsalına gətirib çıxarır. Demoqrafik inkişaf proqramlarının yenidən işlənməsi kompleks

xarakter daşımalıdır, ictimai həyatın amillərinin geniş dairəsini əhatə etməlidir, demoqrafik proseslərin çoxaspektli və çoxnövlü nəticələrini nəzərə almalıdır. Beləliklə, demoqrafik siyasət dövlət orqanlarının və digər sosial institutların məqsədyönlü fəaliyyətidir. O, cəmiyyətin həyat fəaliyyətinin bir sıra sferalarını əhatə edir və müxtəlif istiqamətlərdə həyata keçirilir.

Keyfiyyətli və etibarlı statistik informasiya demoqrafik sahədə düzgün idarəetmə qərarları qəbul etməyə imkan verir. Təcrübə göstərir ki, bəzi demoqrafik göstəricilərin yaxşılaşdırılması nəticəsində demoqrafik böhranı yumşaltmaq və aradan qaldırmaq mümkündür. Fikrimizcə, demoqrafik inkişafın müasir mərhələsində düzəlişlər edilməsi zəruri olan əsas demoqrafik göstəricilərə - sağlamlıq və ömüruzunluğu, doğum və ailə, əhalinin miqrasiyası və yerləşməsini aid etmək olar.

***2. Demoqrafik proseslərin statistik informasiya mənbələri və göstəricilər sistemi.*** Müasir dövrdə bəşəriyyəti narahat edən qlobal problemlər içərisində demoqrafik məsələlər mühüm yer tutur. Demoqrafik proseslər hər bir ölkənin həm daxili, həm də beynəlxalq siyasətində böyük əhəmiyyət kəsb edir. Əhalinin sayı müasir dövrün çoxsaylı problemlərinə mühüm təsir göstərir. Demoqrafik inkişaf problemləri iqtisadi problemlərlə sıx əlaqədə ölkənin və onun əhalisinin həyati maraqlarına birbaşa təsir göstərir.

Müasir mərhələdə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının strategiyası bazar iqtisadiyyatına keçid və dünya birliyi sisteminə hərtərəfli inteqrasiya olunmaqdır ki, bu da mühüm şərtlərdən biri kimi əhalinin təkrar istehsalının və miqrasiyasının optimal səviyyəsinin formalaşdırılmasını ciddi surətdə tələb edir. Bu, ölkədə baş verən demoqrafik proseslərin inkişaf meyli və dinamikası, onun səbəbləri haqqında dərin və hərtərəfli məlumatların olmasını zəruri edir. Odur ki, demoqrafik proseslərin tənzimlənməsi və statistik qiymətləndirilməsi sahəsində mühüm məsələlərdən biri ilkin informasiyanın yığılması və təhlilinin müasir metodlarının işlənib hazırlanması və tətbiqindən ibarətdir.

Müəyyən vaxt anına əhalinin vəziyyəti haqqında ilkin məlumatlar əhalinin siyahıyaalmaları, seçmə və sosioloji tədqiqatlar əsasında əldə edilir. Bunlarla yanaşı, məlumat mənbəyi kimi müxtəlif məqsədlər üçün tərtib edilən əhali siyahıları, məsələn seçki, hərbi-uçot, yaşayış məntəqəsinin qeydiyyatı məlumatları və s. ola bilər. Əhali haqqında informasiya mənbələrini 1 saylı sxemdəki kimi sistemləşdirmək olar.

İlkin demoqrafik informasiyanın mənbələrinin əsas növlərinə - əhalinin siyahıyaalmaları, demoqrafik hadisələrin cari (fasiləsiz) uçotu, xüsusi və seçmə tədqiqatları, əhalinin registləri və siyahıları aiddir:






**Sxem 1. Əhali haqqında informasiya mənbələri**

Əhali statistikasının informasiya bazasını formalaşdıran mənbələrin sistemli təhlili, onların bir sıra üstünlüklərini və çatışmazlıqlarını ümumiləşdirməyə imkan verir (cədvəl 1).

Cədvəl 1

**Demoqrafik statistikasının informasiya bazasını formalaşdıran müxtəlif mənbələrin üstünlükləri və çatışmazlıqları**

| Məlumat mənbəyi | Üstünlüklər | Çatışmazlıqlar |
|---|---|---|
| Əhali siyahıyaalması | 1.Əhalinin sayı və tərkibi haqqında məlumatların kompleks təsviri | 1.Əhali haqqında məlumatların alınmasının ən bahalı üsulu |
| | 2.Əhalinin sayı, tərkibi, eləcə də hərəkətinin və həyat şəraitinin parametrlərinin birbaşa müəyyən edilməsi imkanı | 2.Alınmış statistik informasiyanın dövrülüyü |
| | 3.Əhali göstəricilərinin müəyyən edilməsi ilə bağlı əlavə işlərin aparılması imkanı | 3.Əhalinin bəzi sosial-demoqrafik təbəqələri üzrə məlumatların toplanmasının mümkünsüzlüyü |
| Əhalinin cari uçotu | 1.Əhalinin ayrı-ayrı sosial-demoqrafik qruplarının parametrlərinin müntəzəm müşahidə edilməsi | 1.Əhalinin bəzi sosial-demoqrafik təbəqələri üzrə informasiyanın tam şəkildə olmaması |
| | 2.Əhalinin müxtəlif təbəqələrinin təmsilçilərinin məlumatlarının sənədlərdə əks etdirilməsi | 2.Ayrı-ayrı əhali qruplarının sayı və tərkibi göstəricilərinin müəyyən edilməsi üçün əlavə işlərin aparılması zəruriliyi |
| Seçmə tədqiqatları | 1.İstənilən sosial-demoqrafik əhali qrupları üzrə statistik informasiyanın əldə edilməsi imkanı | 1.Yığılmış məlumatların reprezentativlik problemi (seçmə məcmusunun məlumatları müxtəlif səbəblərdən tədqiq edilən bütün əhali təbəqəsinin xarakteristikaları ilə üst-üstə düşməyə bilər) |

*Cədvəl 1-in ardı*

| | | |
|---|---|---|
| | 2.Seçilmiş sosial-demoqrafik əhali təbəqəsinin vəziyyəti və inkişafı parametrlərinin hərtərəfli tədqiqi imkanı | 2.Seçmə tədqiqatının nəticələrinin baş məcmuya şamil edilməsində praktiki çətinliklər |
| | 3. Maddi, əmək və maliyyə resurslarına qənaət vasitəsilə statistik əməliyyatların nisbətən ucuzluğu | |
| Xüsusi məlumat bazaları | 1.Əhalinin konkret sosial-demoqrafik qrupunun vəziyyəti və inkişaf meylləri haqqında məlumatların operativliyi | 1. Əhalinin ayrı-ayrı sosial-demoqrafik təbəqələrinin təmsilçilərinin kodlaşdırılması ilə bağlı əlavə işlərin aparılmasının zəruriliyi |
| | 2.Cevik axtarış, dəyişikliklərin daxil edilməsi və statistik məlumatların avtomatlaşdırılmış işlənməsi imkanı | 2. Məlumat bazalarının qorunması və təhlükəsizliyinə yönəldilmiş kompleks tədbirlərin aparılmasına daim artan tələbat |
| | 3.Əhalinin müxtəlif sosial-demoqrafik təbəqələri üzrə məlumat bazalarının yaranmasına, prinpislərinə, vəzifələrinə, alqoritm və texnologiyalarına yanaşma və tələblərin standartlaşması imkanı | 3.İnformasiyanın məxfiliyi prinsipinə riayət edilməsi zəruriliyi |

*Mənbə: cədvəl müəllif tərəfindən tərtib edilmişdir*

Beləliklə, araşdırma göstərir ki, ölkə əhalisinin müxtəlif sosial təbəqələrinin vəziyyəti və inkişafının təhlilinin informasiya təminatında əhəmiyyəli dəyişikliklərin aparılması və bütün informasiya mənbələrinə aid olan ümumi xüsusiyyətlərin seçilməsi məqsədəuyğundur. Ayrı-ayrı məlumat mənbələrinin üstünlüklərinin və çatışmazlıqlarının müqayisəli təhlili demoqrafik proseslərin informasiya bazasının təkmilləşdirməsi və optimallaşdırması istiqamətlərini müəyyənləşdirməyə imkan verir. Fikrimizcə, onları 2 saylı sxemdəki kimi sistemləşdirmək olar.




**Sxem 2. Demoqrafik proseslərin statistik informasiya bazasının təkmilləşdirilməsi istiqamətləri**



Beləliklə, qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, müasir mərhələdə demoqrafik proseslərin informasiya mənbələrinin təkmilləşdirilməsi, ölkənin inkişaf xüsusiyyətlərini nəzərə almaqla onların beynəlxalq standartlara uyğunlaşdırılması zəruridir. Fikrimizcə, demoqrafik proseslərin informasiya bazası yalnız əhalinin kəmiyyət deyil, həm də keyfiyyət parametrlərini təhlil etməyə imkan verməlidir.

Statistika təcrübəsində doğumun səviyyəsi və dinamikasını öyrənmək üçün müxtəlif göstəricilər (həm mütləq, həm də nisbi göstəricilər) işlənib hazırlanmışdır. Doğumun ən sadə göstəricisi doğum prosesinin miqyası haqqında ümumi təsəvvür əldə etməyə imkan verən il ərzində doğulanların mütləq sayıdır. İl ərzində doğulanların ümumi sayı əhalinin orta illik sayı ilə müqayisə edilərək ümumi doğum əmsalı hesablanır.

Müxtəlif ölkələr, regionlar və s. üzrə doğumun müqayisəli xarakteristikasını vermək üçün əlverişli vasitələrdən biri əmsallar şkalasıdır.

Doğumun səviyyəsini daha təfsilatı ilə təhlil etmək məqsədilə xüsusi doğum əmsalı hesablanır.

Ümumi və xüsusi doğum əmsalları arasında müəyyən qarşılıqlı əlaqə vardır ki, bundan da statistik təhlildə geniş istifadə edilir.

Doğumun dəyişməsi bir sıra amillərin təsiri altında baş verir. Bu amillərin doğumun intensivliyinə təsirini öyrənmək üçün doğum statistikasında indeks, klaster, korrelyasiya-reqressiya təhlilindən və digər metodlardan istifadə edirlər. Biz əhalinin təbii hərəkətini, xüsusilə doğumun səviyyə və dinamikasını təhlil edərkən indeks metodundan geniş istifadə etmişik. İndekslər həm dinamika, həm müqayisə göstəricisi, həm də analitik vasitə kimi çıxış edə bilir.

Əhalinin təbii hərəkətinin ən mühüm komponentlərindən biri ölümdür. Əhali statistikasında ölümə müəyyən nəsil əhalidə baş verən müxtəlif ölüm hadisələrinin məcmusu kimi baxılır. Müasir dövrdə ölümün statistik öyrənilməsi istiqamətlərini 3 saylı sxemdəki kimi sistemləşdirmək olar.




***Sxem 3. Ölümün statistik öyrənilməsinin əsas istiqamətləri***

Statistika təcrübəsində ölümün səviyyəsini qiymətləndirmək üçün ölüm əmsalı şkalasından istifadə edilir.

Ölümün statistik təhlilinin ən mühüm istiqamətlərindən biri uşaq ölümüdür. Uşaq ölümü həyatın ilk ilində uşaqların ölümüdür və 1 yaşa qədər ölənləri özündə birləşdirir.

Əhalinin təbii hərəkətinin mühüm ünsürlərindən biri nigahın bağlanması və pozulması prosesidir. Nigahın bağlanması sosial institutlardan olan ailənin yaranması üçün başlanğıcdır. Nigahın bağlanması və pozulması demoqrafik proseslərin ümumi gedişinə əhəmiyyətli təsir göstərir. Odur ki, nigah-ailə münasibətlərinin normal formalaşması üçün onun statistik öyrənilməsi zəruridir.

Əhalinin nigah vəziyyəti ilk növbədə bilavasitə nigahda olan şəxslərin sayı haqqında məlumatlarla öyrənilir. Əhalinin nigah vəziyyətini daha geniş öyrənmək üçün nigahda olan, nigahda heç vaxt olmayan, dul olan, ayrılmışlar haqqında məlumatlar toplanılır. Şəhər və kənd əhalisi üzrə nigah vəziyyətinin qiymətləndirilməsi statistikada mühüm əhəmiyyət kəsb edir. Bundan başqa statistik təhlildə faktiki və qeydiyyatda olan nigah hadisələrinə də xüsusi diqqət yetirilir.

Əhalinin təbii hərəkətini xarakterizə edən demoqrafik proseslərdən biri də nigahın pozulmasıdır. Nigahın pozulmasını, onun səbəblərini və xarakterini, intensivliyini, inkişaf meylini və dinamikasını öyrənmək üçün müxtəlif göstəricilər sistemindən istifadə edilir. Nigahın pozulmasını səciyyələndirmək və əhalinin cins və yaş tərkibini statistik qiymətləndirmək üçün bir sıra göstəricilər hesablanır.

Beləliklə, düzgün və keyfiyyətli statistik təhlil üçün ölkədə demoqrafik proseslərin faktiki vəziyyətini, onların mümkün inkişaf variantlarına təsir edən amilləri kifayət qədər tam təsvir edən kompleks göstəricilərin seçilməsi zəruridir.

***3.Azərbaycan Respublikasinda demoqrafik proseslərin inkişaf meylinin və dinamikasinin statistik tədqiqi.***

Müasir səraitdə Azərbaycanın sosial-iqtisadi inkişafının vacib şərtlərindən biri əhalinin demoqrafik vəziyyətinin və onun inkişaf meylinin statistik qiymətləndirilməsidir. Ölkə üzrə əhalinin sayının dinamikası haqqında məlumat aşağıdakı cədvəldə verilmişdir (cədvəl 2).

Cədvəldən göründüyü kimi 1999-2017-ci illərdə Respublikamızda əhalinin sayı xeyli artmışdır. Belə ki, 1999 – cu il ilə müqayisədə 2016-cı ildə əhali 23,3%, 2009- cu il ilə müqayisədə isə 9,9% artmışdır. 1999-cu ildə şəhər əhalisi 51,1%, kənd əhalisi 48,9% olduğu halda, 2017-ci ilin əvvəlinə bu göstəricilərin səviyyəsi müvafiq olaraq 53% və 47% təşkil etmişdir. Göründüyü kimi insanların hələ də şəhərə axın meyli müşahidə olunur. Hesab edirik ki, bu prosesin qarşısını almaq üçün lazımi tədbirlər görülməlidir. Təsadüfi deyildir ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı Ölkə Prezidenti tərəfindən imzalanmış fərmanla Dövlət Proqramı qəbul edilmişdir ki, bu da əhalinin şəhərə axının qarşısını alacaqdır.



Cədvəl 2

**1999-2017-ci illərdə Azərbaycan Respublikasında əhalinin sayı**

| İllər | Cəmi əhalinin sayı, min nəfər | O cümlədən | | Bütün əhaliyə görə, faizlə | |
|---|---|---|---|---|---|
| | | Şəhər | Kənd | Şəhər | Kənd |
| 1999 | 7953,4 | 4064,3 | 3889,1 | 51,1 | 48,9 |
| 2000 | 8016,2 | 4086,4 | 3929,8 | 51,0 | 49,0 |
| 2005 | 8347,3 | 4298,3 | 4049,0 | 51,5 | 48,5 |
| 2009 | 8922,4 | 4739,1 | 4183,3 | 53,1 | 46,9 |
| 2010 | 8997,6 | 4774,9 | 4222,7 | 53,1 | 46,9 |
| 2011 | 9111,1 | 4829,5 | 4281,6 | 53,0 | 47,0 |
| 2012 | 9235,1 | 4888,7 | 4346,4 | 52,9 | 47,1 |
| 2013 | 9356,5 | 4966,2 | 4390,3 | 53,1 | 46,9 |
| 2014 | 9477,1 | 5045,4 | 4431,7 | 53,2 | 46,8 |
| 2015 | 9593,0 | 5098,3 | 4494,7 | 53,1 | 46,9 |
| 2016 | 9705,6 | 5152,4 | 4553,2 | 53,1 | 46,9 |
| 2017 | 9810,0 | 5199,0 | 4611,0 | 53,0 | 47,0 |

Əhalinin ümumi sayının 2245,8 min nəfəri (təxminən 23%) Azərbaycanın paytaxtı Bakıda cəmləşmişdir.

Son illərdə bəzi səbəblərdən qaçqın və köçkün düşmüş insanların sayını da nəzərə alsaq bu göstəricinin səviyyəsi xeyli artmış olar. Keçən əsrin II yarısından başlayaraq Respublikada demoqrafik proseslərin dinamikası və inkişaf meylindəki dəyişikliklərin səbəbləri çoxsaylı və çox istiqamətlidir. Ümumiyyətlə, əhalinin sayında baş verən dəyişikliklərin iki mənbəyi: təbii artım və miqrasiya artımı vardır. Azərbaycanın demoqrafik inkişafında demək olar ki, bütün dövr ərzində həlledici rol təbii artıma xas olmuşdur.

Təhlil göstərir ki, son illərdə kənd əhalisinin orta illik artım sürətinin şəhər əhalisinin orta illik artım sürətindən yüksək olmasına baxmayaraq, əhalinin ümumi sayında üstün mövqe şəhər əhalisinə xas olmuşdur. Əhalinin cins tərkibində kişilərin xüsusi çəkisinin azalması və qadınların xüsusi çəkisinin artması hesabına isə qadınların sayı üstünlük təşkil etmişdir. 2017-ci ildə Azərbaycan əhalisi üçün cins quruluşundakı fərqin səviyyəsi normal olmuşdur.

Əhalinin demoqrafik inkişafında və sosial-demoqrafik qurluşunun formalaşmasında onun cins - yaş tərkibi xüsusi əhəmiyyət kəsb edir.

Statistika təcrübəsində əhalinin yaş quruluşunu ümumi qiymətləndirərkən onu üç yaş kateqoriyasına bölürlər. Kateqoriya prinsipi əsasında təhlil aparmazdan əvvəl əhalinin bütün yaş quruluşlarını öyrənmək lazımdır. Son dövrlərdə Azərbaycan əhalisinin bütün yaş qruplarının dinamikasında xeyli dəyişikliklər baş vermişdir (cədvəl 3).

Cədvəl 3

**1999-2017-ci illərdə Azərbaycan Respublikasında əhalinin yaş qrupları üzrə sayı, min nəfər**

| Yaş qrupları | 1999 | 2009 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | 7953,4 | 8922,4 | 9235,1 | 9356,5 | 9477,1 | 9593,0 | 9705,6 | 9810,0 |
| 0- 4 | 710,9 | 681,6 | 765,2 | 812,6 | 832,8 | 851,4 | 851,9 | 835,5 |
| 5 – 9 | 920,0 | 648,1 | 623,0 | 620,7 | 638,3 | 666,9 | 709,3 | 761,9 |
| 10 – 14 | 901,2 | 763,9 | 664,3 | 653,8 | 647,5 | 634,4 | 625,7 | 622,4 |
| 15 – 19 | 756,7 | 922,3 | 844,4 | 801,9 | 762,8 | 724,9 | 693,0 | 663,6 |
| 20 – 24 | 648,0 | 925,6 | 944,6 | 937,2 | 920,3 | 902,8 | 873,3 | 842,2 |
| 25 – 29 | 629,1 | 794,3 | 873,0 | 898,2 | 923,6 | 936,8 | 943,6 | 941,9 |
| 30 – 34 | 682,6 | 659,1 | 736,5 | 767,2 | 791,5 | 816,9 | 840,0 | 870,2 |
| 35 – 39 | 699,3 | 633,8 | 626,4 | 633,5 | 655,9 | 680,9 | 709,3 | 732,4 |
| 40 – 44 | 533,0 | 668,4 | 653,1 | 646,6 | 629,4 | 620,3 | 613,8 | 622,0 |
| 45 – 49 | 343,3 | 677,9 | 670,4 | 662,0 | 660,7 | 657,0 | 655,7 | 646,1 |
| 50 – 54 | 199,9 | 510,9 | 629,5 | 653,4 | 664,4 | 666,4 | 660,7 | 657,3 |
| 55 – 59 | 211,8 | 322,8 | 407,2 | 443,6 | 492,2 | 536,3 | 580,7 | 608,8 |
| 60 – 64 | 282,0 | 179,3 | 266,2 | 287,6 | 304,0 | 327,3 | 351,1 | 384,9 |
| 65 – 69 | 199,3 | 160,1 | 122,9 | 136,4 | 163,4 | 190,4 | 222,3 | 242,5 |
| 70 və daha yuxarı | 236,3 | 375,3 | 408,4 | 401,8 | 390,3 | 380,3 | 375,2 | 377,8 |

Cədvəldə verilən məlumatlar əsasında son dövrdə Azərbaycanda yaş qrupları üzrə əhalinin sayının dinamikası haqqında aşağıdakıları qeyd etmək olar. Belə ki, 1999-cu illə müqayisədə 2016-ildə Azərbaycan əhalisinin 5-9, 10-14 və 15-19 yaş qrupları istisna olmaqla (bunların sayında müqayisə olunan uyğun dövrdə azalma baş vermişdir- 23%, 30,6% və 8,4%) yerdə qalan digər yaş qruplarında əhalinin sayı xeyli artmışdır.

70 və yuxarı yaş qrupunda əhalinin sayı 1999-cu ilə nisbətən 2016-cı ildə 58,8% artmışdır. Tədqiq edilən dövrdə əhalinin yaş qruplarının dinamikasında əsas meyl cavan yaşda əhalinin sayının aşağı sürətlə artması fonunda 70 və ondan yuxarı yaş qrupunda əhalinin sayının sürətlə artmasıdır. Bu da ölkədə demoqrafik qocalma prosesinin getdiyinə dəlalət edir.

Əhalidə müxtəlif yaş qruplarının xüsusi çəkisi məlumatlarının təhlili son illərdə əhalidə demoqrafik qocalma prosesinin sürətləndiyini göstərir.

Təhlil edilən dövrdə əhalinin yaş qrupları üzrə hər 1000 kişiyə düşən qadınların sayında azalma müşahidə olunmuşdur. Belə ki, 1999-cu ildə bütövlükdə əhali üzrə hər 1000 kişiyə1048, 2009-cu ildə 1021, 2017-cı ildə isə 1006 nəfər qadın düşmüşdür.

Beləliklə, təhlil göstərir ki, ölkəmizdə əhalinin sayını artırmaq üçün demoqrafik planda potensial imkanlar vardır. Odur ki, səmərəli sosial-iqtisadi və demoqrafik-ailə siyasətini həyata keçirməklə bütövlükdə cəmiyyətin xeyrinə bütün daxili potensialın hərəkətə gətirilməsi zəruridir.

Əhalinin yaş qururluşundakı dəyişikliklər bir çox demoqrafik göstəricilərə



ciddi təsir göstərir. Yaş quruluşunun dəyişməsi əmək qabliyyətli əhalinin uşaqlarla (0 - 14) və qocalarla (60 və yuxarı) demoqrafik yüklənməsinə gətirib çıxarır. Bu istiqamətdə təhlil aparmaq üçün demoqrafik yüklənmə göstəricilərini aşağıdakı cədvəldə əks etdirək (cədvəl 4). Cədvəlin məlumatlarından görünür ki, 2005-2016-ci illərdə Azərbaycanda əmək qabiliyyətli əhalinin demoqrafik yüklənmə göstəricilərinin dinamikasında kəskin azalma müşahidə olunmamışdur. Belə ki, 2005-ci ildə əmək qabliyyətli yaşda əhalinin hər 1000 nəfərinə ümumi demoqrafik yüklənmə əmsalı (həm uşaqlar, həm də qocalar üzrə birlikdə) 548 nəfər olmuşdursa, 2016-cı ildə isə 501 nəfər təşkil etmişdir.

Cədvəl 4

**2005-2016 – cı illərdə Azərbaycan Respublikasında əmək qabliyyətli əhalinin demoqrafik yüklənməsinin dinamikası**

| İlllər | Əmək qabiliyyətli yaşadək əhali, min nəfər | Əmək qabiliyyətli yaşda əhali, min nəfər | Əmək qabiliyyətli yaşdan yuxarı əhali,min nəfər | Ümumi demoqrafik yüklənmə əmsalı,% | |
|---|---|---|---|---|---|
| | | | | Potensial yüklənmə əmsalı | Qocalarla yüklənmə əmsalı |
| 2005 | 2153,3 | 5304,0 | 753,2 | 406 | 142 |
| 2006 | 2110,6 | 5444,1 | 751,1 | 388 | 138 |
| 2007 | 2083,4 | 5569,6 | 763,7 | 374 | 137 |
| 2008 | 2053,0 | 5681,2 | 778,7 | 361 | 137 |
| 2009 | 2030,7 | 5773,3 | 799,0 | 352 | 138 |
| 2010 | 2032,4 | 5875,7 | 792,8 | 346 | 135 |
| 2011 | 2052,5 | 5974,6 | 786,9 | 344 | 132 |
| 2012 | 2087,1 | 6042,0 | 795,8 | 345 | 132 |
| 2013 | 2118,6 | 6102,6 | 809,6 | 347 | 133 |
| 2014 | 2152,7 | 6150,3 | 823,9 | 350 | 134 |
| 2015 | 2186,9 | 6198,7 | 840,9 | 353 | 136 |
| 2016 | 2219,8 | 6207,0 | 884,7 | 358 | 143 |

Araşdırma göstərir ki, qocalma səviyyəsinin artmasının əsas səbəbələri ölkədə doğumun aşağı düşməsi, əhalidə gənc yaş qrupunda olan əhalinin xüsusi çəkisinin azalması, doğulanda gözlənilən ömür uzunluğunun artmasıdır.

**4. Azərbaycan əhalisinin təbii hərəkətinin statistik təhlili.** Əhalinin təbii hərəkətini xarakterizə edən mühüm proseslərdən biri doğumdur. Son dövrlərdə Azərbaycanın demoqrafik inkişafı müəyyən müsbət dəyişiklərlə xarakterizə olunur. Belə ki, doğulanların sayının nisbətən aşağı düşməsinə baxmayaraq ölənlərin həm ümumi, həm də bəzi xəstəliklər üzrə sayı azalmış, gözlənilən ömür uzunluğu artmış, uşaq ölümündə azalma meyli saxlanılmışdır. 1960-cı ildə Azərbaycanda ümumi doğum əmsalı 42,6% olmuş, 1964-cü ildən başlayaraq bu göstərici davamlı olaraq azalmağa başlamış və 1994-cü ildə 21,4%-ə düşmüş, sonrakı illərdə isə azalma yenə də davam etmişdir.

Əhali və onun müxtəlif qrupları üzrə doğumun səviyyəsi, onun dinamikası, intensivliyi, ona təsir edən amillərin öyrənilməsi statistik təhlilin mühüm istiqa-

mətlərindən biridir. Ölkə üzrə ümumilikdə törəmə qabiliyyətli qadınların (15-49 yaşda) hər birinin bütün həyatı boyu orta hesabla dünyaya gətirdiyi uşaqların sayını xarakterizə edən yekun doğum (nəsilvermə) göstəricisinin öyrənilməsi təhlilin əsas istiqamətlərindən biri olmalıdır. Bu istiqamətdə araşdırılan əsas məsələlərdən biri də törəmə qabiliyyətli qadınların doğum potensialından istifadənin dinamikasını öyrənməkdir. Bunun müəyyən edilməsi doğum səviyyəsində müşahidə olunan meyllərin düzgün qiymətləndirilməsinə imkan verir.

5 saylı cədvəlin məlumatlarından göründüyü kimi təbii artımın kəmiyyəti müsbətdir. Bu da Respublikada nəslin əvəz edilməsinin təmin edildiyi baxımından xoş təəsürat yaradır. Lakin onu da nəzərdən qaçırmaq olmaz ki, doğulanların sayının ölənlərin sayından üstün olması gələcəkdə əhalinin geniş təkrar istehsalı üçün şəraitin mövcud olması demək deyildir. Bu yalnız müasir dövrdə əhalinin müsbət təbii artımını təmin edən cins-yaş quruluşunun mövcud olduğunu göstərir.

Cədvəl 5

**2006-2016-cı illərdə Azərbaycan Respublikasında əhalinin təbii hərəkətinin dinamikası**

| İllər | Doğulanlar, min nəfər | Ölənlər, min nəfər | Təbii artım, min nəfər | Əhalinin hər 1000 nəfərinə düşən, nəfər | | |
|---|---|---|---|---|---|---|
| | | | | Doğulanlar | Ölənlər | Təbii artım |
| 2006 | 148,9 | 52,2 | 96,7 | 17,5 | 6,2 | 11,3 |
| 2009 | 152,1 | 52,5 | 99,6 | 17,2 | 5,9 | 11,3 |
| 2010 | 165,6 | 53,6 | 112,0 | 18,5 | 6,0 | 12,5 |
| 2011 | 176,1 | 53,8 | 122,3 | 19,4 | 5,9 | 13,5 |
| 2012 | 174,5 | 55,0 | 119,5 | 19,0 | 6,0 | 13,0 |
| 2013 | 172,7 | 54,4 | 118,3 | 18,6 | 5,8 | 12,8 |
| 2014 | 170,5 | 55,6 | 114,9 | 18,1 | 5,9 | 12,2 |
| 2015 | 166,2 | 54,7 | 111,5 | 17,4 | 5,7 | 11,7 |
| 2016 | 159,5 | 56,6 | 102,8 | 16,5 | 5,9 | 10,6 |

Lakin gələcəkcə əhalinin yaş tərkibinin dəyişməsi prosesindən doğulanlarla ölənlərin sayı arasındakı əlverişli nisbət aradan qalxa bilər.Odur ki, əhalinin təbii artım imkanlarının həm əhalinin yaş quruluşunun, həm də doğulan və ölənlərin sayındakı nisbətin dəyişməsi əsasında qiymətləndirilməsi zəruridir. Rəsmi statistikanın məlumatları 2006-cı ildə Azərbaycan əhalisinin doğum əmsalının 17,5%, 2011-ci ildə 19,4%, 2016-ci ildə isə 16,5% olduğunu göstərir. Lakin ölüm əmsalının da azalması əhalinin təbii artımınını müvafiq olaraq 11,3%, 13,5% və 10,6% səviyyəsində formalaşmasına gətirib çıxarmışdır. Deməli, əhalinin təkrar istehsalı özünün sadə təkrar istehsalı təmin etməyən mərhələsinə keçməmişdir.

Araşdırma göstərir ki, son dövrlərdə törəmə qabiliyyətli qadınların demoqrafik göstəricilərində müəyyən dəyişikliklər baş vermişdir. Belə ki, 2000 -ci illə müqayisədə 2005-ci ildə 15-49 yaşda olan qadınların sayı 12,3%, 2009-cu ildə



18,9%, 2015-ci ildə isə 17,7% artmışdır. Ötən illərdə olduğu kimi, 2015-ci ildə də yaş qrupları üzrə doğum əmsalının yüksək səviyyəsi 20-24 və 25-29 yaş qruplarına xas olmuşdur. Bu iki yaş qruplarının törəmə qabiliyyətli ümumi qadınlarda xüsusi çəkisi müqayisə edilən illərdə dəyişməmiş və 34% təşkil etmişdir.

Təkrar istehsalın brutto əmsalı 2000-ci ildə 2406,4, 2016-cı ildə isə 2470,4 təşkil etmişdir. Bu o deməkdir ki, 2000-ci ildə hər 1000 qadın özündən sonra 2406, 2016-cı ildə isə 2470 qız uşağı qoymuşdur. Bu da sadə təkrar istehsalı təmin edən səviyyədir.

Beləliklə, son dövrlərdə Azərbaycanda doğum göstəricilərinin aşağı düşməsi iki əsas amilin qarşılıqlı fəaliyyəti əsasında güclənmişdir.

Hər bir ölkə kimi Azərbaycan da ölüm səviyyəsinin minimuma endirilməsində maraqlıdır. Ona görə də insanların fəal həyat müddətinin artırılması və onların sağlamlığının möhkəmləndirilməsi ölkə Konstitusiyasında bir müddəa kimi təsbit olunmuşdur.

Ölüm prosesinin kompleks və səmərəli qiymətləndirilməsi yalnız bu hadisənin ünsürləri haqqında müxtəlif informasiyanın mövcudluğu şəraitində mümkündür.

2005-2015-ci illərdə Azərbaycan Respublikasında ölənlərin sayının dinamikasında müəyyən dəyişikliklər baş vermişdir. Belə ki, 2005-ci ilə nisbətən 2015-ci ildə ölənlərin sayı 5,2%, o cümlədən şəhər və kənd üzrə müvafiq olaraq 8,3%; 1,8% artmışdır. Əgər 2005-ci ildə Azərbaycanda gündə orta hesabla 142 nəfər insan ölmüşdürsə, 2009-cu ildə bu göstərici 144 nəfər, 2015-ci ildə isə təxminən 150 nəfər təşkil etmişdir.

2005-ci illə müqayisədə 2015-ci ildə əhalinin hər 1000 nəfərinə ölənlərin sayı 6,2%-dən 5,7%-ə, kənd əhalisində isə 6,2%-dən 5,6%-ə, şəhər əhalisi üzrə bu göstərici 6,2%-dən 5,9%-ə düşmüşdür.

Rəsmi statistikanın məlumatları səbəblər arasında qan dövranı sistemindən ölənlərin sayının daha yüksək olduğunu göstərir. Belə ki, 2005-ci ilə nisbətən 2015-ci ildə qan dövranı sistemindən ölənlərin sayı 11,7% artmışdır.

Doğulanda gözlənilən ömür uzunluğu göstəricisinin kişi və qadınlar arasındakı fərqin çox olması mənfi meyl kimi səciyyələndirilir. 1995-cı ildə bu göstərici Azərbaycanda 7,7 il, 2016-ci ildə isə 4,8 il olmuşdur. Bu nisbəti qarşılıqlı tamamlayan bir sıra səbəblər mövcuddur.

Beləliklə, Azərbaycan Respublikasında əhalinin ölümünün ümumi meylinin təhlili aşağıdakı nəticələri çıxarmağa imkan verir:

1) Bütövlükdə Azərbaycanda əhalinin ölüm meyli inkişaf etmiş ölkələrdəki ölüm proseslərinin ümumi inkişaf qanunauyğunluqlarına cavab verir:

2) Qadınlarla müqayisədə kişilərdə ölümün səviyyəsi xeyli yüksəkdir ki, bu da bir sıra sosial-iqtisadi xarakterli amillərin kompleks təsiri altında formalaşır.

3) Azərbaycan Respublikasının kənd yerlərində ölümün səviyyəsi şəhər yerlərindən xeyli aşağıdır.

Əhalinin ölümünün müxtəlif parametrlərinin dəyişməsinin və intensivliyinin dərəcəsini xarakterizə edən göstəricilər sistemində uşaq ölümü mühüm yerlərdən birini tutur. Ümumidünya Səhiyyə Təşkilatının məlumatlarına görə uşaq ölümü əmsalı 20% -i keçməyən dövlət, bir yaşa qədər uşaq ölümü aşağı səviyyədə olan ölkələr kateqoriyasına aid edilir. Azərbaycan Respublikası bu cür ölkələr qrupuna 1996-cı ildə daxil olmuşdur. 2015-ci ildə uşaq ölümü əmsalı 11% olmuşdur.

2006-2016-ci illər üzrə Azərbaycan Respublikasında uşaq ölümünün təhlili bir yaşa qədər uşaq ölümünün dinamikasının xeyli dəyişikliklərə məruz qaldığını göstərir. Əgər 1990-cı ildə 1 yaşa qədər ölən uşaqların sayı 4193 nəfər olmuşdursa, 2006-cı ildə bu təxminən 55% azalmış və 1882 nəfər təşkil etmişdir. 2016-cı ildə ölən körpələrin sayı 1990-cı il ilə müqayisədə 60% azalmışdır.

Araşdırma göstərir ki, ekzogen səbəblər hesabına uşaq ölümünün azaldılması sahəsində geniş imkanların olmasına baxmayaraq, onlardan müasir mərhələdə tam istifadə edilmir. Fikrimizcə, sosial-iqtisadi inkişafda keyfiyyət amillərinin rolunun artırılması, tibbi xidmətin daha da inkişaf etdirilməsi, profilaktik tədbirlərin həyata keçirilməsi və bu istiqamətdə yönəldilən vəsaitlərin həcminin artırılması, ekoloji vəziyyətin daha da yaxşılaşdırılması və s. ekzogen və endogen səbəbdən ölənlərin sayının azalmasına müsbət təsir göstərə bilər.

***5. Nigahın bağlanması və pozulmasının cari vəziyyəti.*** Əhalinin təbii hərəkətini xarakterizə edən mühüm proseslərdən biri nigahdır. Azərbaycan Respublikasında əhalinin nigah səviyyəsi və onun müasir xüsusiyyətləri sosial - iqtisadi, demoqrafik, mənəvi-psixoloji və digər çoxsaylı amillərin təsiri altında formalaşmışdır. Bu istiqamətdə araşdırma aparmaq üçün 1999-cu və 2009-cu illərin əhali siyahıyaalmasının məlumatlarından istifadə edilmişdir.

1999-cu il siyahıyaalmasına görə (kişilər üzrə) 2009-cu ildə nigahda olmayanların sayı 56%, nigahda olanlar 21%, dullar 32%, boşanmışlar 67% artmışdır. Qadınlar üzrə isə artım müvafiq olaraq–55%, 19%, 14%, 52% təşkil etmişdir.

1999-cu il siyahıyaalınmasının məlumatlarına görə kişilər arasında heç vaxt nigahda olmayanların xüsusi çəkisi 30,3%, nigahda olanların xüsusi çəkisi 66,9%, 2009-cu ildə isə bu göstəricilər müvafiq olaraq 35,7%, 61,3% təşkil etmişdir. Bu quruluşu sütunlu qrafik daha əyani göstərir (şəkil 1).

Siyahıyaalınma arası əhalinin nigah vəziyyətində mühüm meyllər formalaşmışdır. Belə ki, 1999-cu il siyahıyalaması ilə müqayisədə 2009-cu ildə nigahların sayı təqribən 2 dəfə, boşanmaların sayı isə 55% artmışdır. 2003-cü ildən həm nigahların, həm də boşanmaların sayında artım müşahidə olunurdusa, 2008 və 2009-cu illərdə bu göstəricilər əvvəlki ilə nisbətən bir qədər azalmışdır. Rəsmi statistikanın məlumatları son 5 ildə ölkədə bağlanmış nigah akt-



larının sayında ziqzaqların olduğunu göstərir. Beləliklə, təhlil edilən dövrdə, yəni 1999-2015-ci illərdə bağlanmış nigahların sayı mütləq ifadədə ildə orta hesabla 1961 akt artmışdır.




**Şəkil 1. 1999 və 2009-cu illərin siyahıyaalma məlumatlarına görə kişilərin nigah vəziyyəti,%**

2009-cu ilə nisbətən 2010-cu ildə bağlanan nigahların sayı 1,4% artmışdır, 2015-ci ildə isə 12% azalmışdır. Lakin nigah əmsallarına nəzər salsaq görərik ki, 2015-ci ildə hər 1000 nəfərə 7,2 akt düşür ki, yəni 1999-cu illə müqayisədə 53% çox, bu da kiçik göstərici deyildir. Bu dövrdə bağlanmış nigahların sayında formalaşmış meylin iqtisadi, sosial, milli və mənəvi aspektləri vardır.

Boşanmaların sayına gəldikdə isə, təəsüflə qeyd etmək lazımdır ki, bu göstəricidə əvvəlki illərlə müqayisədə artım müşahidə olunur. Lakin son 5 ildə boşanma əmsalı demək olar ki, sabit qalmışdır.

Bəs boşanmaların səbəbi nədir? Ölkədə problemi hərtərəfli araşdırmağa çalışan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) təhlilləri göstərir ki, müasir Azərbaycanda pozulmuş nikahların yarısı beş ilədək davam edir. Böyük əksəriyyət hallarda isə boşanmadan sonra uşaqlar analara qalır.

Tədqiq edilən dövrdə nigahın pozulması sahəsində qeyd etdiyimiz kimi, ciddi dəyişikliklər baş vermişdir. Belə ki, pozulmuş nigahların sayı 2015-ci ildə 1999-cu illə müqayisədə 2,5 dəfə, 2009-cu illə müqayisədə isə 64% artmışdır.

Qeyd etmək lazımdır ki, digər sahələrdə olduğu kimi demoqrafik sahədə də bir sıra problemlər qalmaqdadır. Belə ki, 1995 – ci ildən qeydə alınmamış nigahdan doğulanların sayı xeyli artmışdır, lakin son dövrlərdə artım sabit və davamlı olmamışdır, əksinə azalma da müşahidə olunmuşdur .

Beləliklə, son dövrlərdə Azərbaycanda əhalinin çins-yaş tərkibində, nigahın bağlanması və pozulması göstəricilərinin dinamikası bir sıra amillərin qarşılıqlı fəaliyyəti əsasında formalaşmışdır. Bu sahədə əsas məsələlərdən biri ölkədə mövcud nigah - ailə münasibətlərinin öz normal axarında inkişaf etməsi üçün əsaslandırılmış demoqrafik siyasətin həyata keçirilməsidir. Onu da qeyd etmək lazımdır ki, son dövrlərdə ölkənin bütün həyatında aparılan əhəmiyyətli də-

yişikliklər müstəqilliyin ilk illərindən demoqrafik göstəricilərdə başlanan mənfi meyllərin qarşısını kəskin şəkildə almışdır. Lakin buna baxmayaraq əhalinin nigah vəziyyəti sahəsində bir sıra problemlərdə qalmaqdadır. Bunların uğurlu həlli bu sahəyə müxtəlif formalarda dövlət dəstəyinin olmasını tələb edir.

***6. Ölkə əhalisinin təkrar istehsalının statistik qiymətləndirilməsinin prioritet istiqamətləri.*** Demoqrafik vəziyyətin hərtərəfli statistik təhlili demoqrafik siyasətin konseptual, müəyyənedici strategiyasının hazırlanmasının zəruri şərtidir. Belə yanaşama həll edilməsi daha vacib olan demoqrafik vəzifələri aşkar etməyə, demoqrafik siyasətin prioritet istiqamətlərini müəyyən etməyə, həmçinin onun səmərəliliyini qiymətləndirməyə imkan verir.

Demoqrafik vəziyyəti statistik təhlil edərkən bu sahədə baş verən proseslərin əsas xüsusiyyətləri nəzərə alınmalıdır. Demoqrafik hadisə və proseslər arasındakı əlaqələrin xarakteri və kəmiyyətinin müəyyən edilməsi onların daha səmərəli və məqsədəmüvafiq idarəedilməsinə imkan verir.

Demoqrafik göstəricilər arasında əlaqələrin aşkar edilməsi ilk növbədə nəzəri təhlilə əsaslanır. Ümumiyyətlə, statistikanın məqsədi bu göstəricilər arasındakı əlaqələri kəmiyyətcə qiymətləndirmək və mövcud qanunauyğunluqları aşkar etməkdir.

Əlaqə və asılılıqların modelləşdirilməsi təcrübəsində reqressiya-korrelyasiya təhlilindən geniş istifadə edilir. Reqressiya-korrelyasiya təhlili vasitəsilə nəticə əlamətinə amil əlamətlərinin təsir səviyyəsi ölçülür, əlaqələrin sıxlıq dərəcəsi və ümumi halda nəticə əlamətinin ümumi dəyişməsində öyrənilən amilin rolu müəyyən edilir.

Doğumun səviyyəsi qarşılıqlı əlaqədə olan, müxtəlif şəraitlərdə ziddiyyətli və eyni istiqamətdə fəaliyyət göstərən çoxlu sosial-iqtisadi amillərdən asılıdır. Əhalinin ölümü millətin sağlamlığının və əhalinin həyat keyfiyyətinin mühüm indikatorudur. Doğumun və ölümün səviyyəsinə həm demoqrafik, həm də sosial-iqtisadi amillər təsir göstərir.

Ölkədə doğulanların ümumi sayına iqtisadi amil kimi nominal əmək haqqının, demoqrafik amil kimi nigahların sayının, ümumi ölüm əmsalına isə iqtisadi amil kimi işsizlik əmsalının və demoqrafik amil kimi 65 yaşdan yuxarı əhalinin ümumi əhalidə xüsusi çəkisinin (qocalma əmsalını) təsirini öyrənmək məqsədilə reqressiya - korrelyasiya metodu tətbiq edilmiş və SPSS proqramı əsasında onların hesablanması həyata keçirilmişdir.

Doğulanların ümumi sayı, nominal əmək haqqı və bağlanmış nigah aktlarının reqressiya-korrelyasiya təhlilinin nəticələri onlar arasında nəzərə çarpacaq əlaqənin olduğunu göstərir.

Məcmu determinasiya əmsalının 0,837-ə bərabər olması doğumun səviyyəsindəki variasiyanın 83,7%-nin modelə daxil edilən amillərlə, 16,3%-nin modelə daxil edilməyən amillərlə bağlı olduğunu göstərir.



Bütövlükdə reqressiya modelinin əhəmiyyətliyinin qiymətləndirilməsi Fişerin F kriteriyası əsasında həyata keçirilmişdir. Qurulmuş ikiamilli reqressiya modeli $\hat{Y}=128,5 + 0,74X_1 + 0,051X_2$ kimi olmuşdur. Deməli, nominal əmək haqqının 1 dollar dəyişməsi doğulanların sayının orta hesabla 0,74 min nəfər, bağlanmış nigahların sayının min akt dəyişməsi isə 0,051 min nəfər dəyişməsinə gətirib çıxarır.

Ölüm əmsalının dəyişməsinə gətirib çıxaran demoqrafik amillərdən 65 yaşdan yuxarı əhalinin ümumi əhalidə xüsusi çəkisi (qocalma əmsalı) və işsizlik əmsalının təsiri öyrənilmişdir. Bu məqsədlə çoxamilli reqressiya modeli qurulmuşdur. Reqressiya modeli $\hat{Y} =5,02 + 0,002X_1 + 0,164X_2$ kimi alınmışdır.

Məcmu determinasiya əmsalı ümumi ölüm əmsalının variasiyasının 73,3%-nin bu iki amillə, 26,7%-nin modelə daxil edilməyən amillərlə müəyyənləşdirildiyini göstərir. Reqressiya modelinin parametrlərinə görə belə nəticəyə gəlmək olar ki, ümumi əhalidə 65 yaşdan yuxarı əhalinin xüsusi çəkisinin (qocalma əmsalının) 1% dəyişməsi ümumi ölüm əmsalının orta hesabla 0,002 promill, işsizliyin 1% dəyişməsi isə orta hesabla 0,0164 promill dəyişməsinə gətirib çıxarır.

Beləliklə, həyata keçirilən reqressiya-korrelyasiya təhlilinin nəticələri ölkədə doğumun və ölümün səviyyəsinə, bütövlükdə demoqrafik vəziyyətə coxsaylı həm demoqrafik, həm də sosial-iqtisadi amillərin təsir göstərdiyini subut edir. Əhalinin orta ömür müddəti, əhalinin təkrar istehsalının parametrlərində müsbət meyllərin saxlanması daha cox sosial və iqtisadi vəziyyətdən, ilk növbədə əhalinin rifah səviyyəsindən asılıdır. Odur ki, ölkədə və onun ayrı-ayrı regionlarında demoqrafik vəziyyətin arzuolunan istiqamətdə inkişafını davamlı olaraq qoruyub saxlamaq və təmin etmək məqsədilə bütün istiqamətlərdə əhalinin həyat keyfiyyətinin yaxşılşdırılmasına əlverişli şəraitin yaradılması zəruridir.

Onu da qeyd etmək lazımdır ki, əhali və onun strukturu, demoqrafik vəziyyətlə bağlı kəmiyyət və keyfiyyət göstəriciləri milli gücün əsas ünsürləridir. Demoqrafik amil dayanıqlı iqtisadi artımın vacib amillətindən biridir. Azərbaycan xalqının genofondunun qorunması, miqrasiya və demoqrafiya kimi məsələlər milli təhlükəsizlik baxımından olduqca vacibdir. Deməli, demoqrafik vəziyyətin yaxşılaşdırılması, əhalinin orta ömür müddətinin artırılması və digər demoqrafik məsələlərin tənzimlənməsi ölkənin demoqrafik siyasətinin prioritet məqsədləri kimi çıxış edir. Fikrimizcə, əhalinin ölüm səviyyəsinin davamlı olaraq minimuma endirilməsi yolu ilə orta ömür müddətinin artırılması, əhalinin bütün sosial-demoqrafik qrupları və təbəqələri üçün sağlam həyat tərzinin yaxşılaşdırılması, əhalinin reproduktiv sağlamlığının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi, ailə planlaşdırılması xidmətinin inkişafı və bu barədə əhalinin məlumatlandırılmasının təmin edilməsi və s. kimi məsələlərə diqqətin yönəldilməsi vacibdir.

***7. Azərbaycan Respublikasında əhalinin sayının modelləşdirilməsi və prognozlaşdırılması.*** Sosial-iqtisadi hadisə və proseslərin proqnozlaşdırılması iqtisadi fəaliyyət subyektlərini, dövlət idarəetmə orqanlarını və s.onların inkişafı haqqında məlumatlarla təmin edir. Onun vasitəsilə bir çox səpgili problemlər həll edilir. Proqnozlaşdırma təcrübəsində sosial - iqtisadi hadisə və proseslərin perspektiv inkişaf meyllərini müəyyənləşdirmək məqsədilə müxtəlif statistik metodlar tətbiq edilir.

Demoqrafik proqnoz - əhalinin sayı və tərkibinin, onun təbii hərəkətinin gələcək vəziyyətinin əsas parametrlərinin qabaqcadan elmi cəhətdən əsaslandırılmasıdır. Bunlara əhalinin sayı, cins-yaş və ailə strukturu, doğum, ölüm, miqrasiya haqqında məlumatlar aiddir. Adətən əhalinin proqnozu - doğum, ölüm və miqrasiyanın bu və ya digər xarakteristikasının gələcək dinamikası baxımından bəzi fərziyyələr əsasında qurulmuş əhalinin sayı və cins-yaş tərkibinin hesablanması formasında çıxış edir. Demoqrafik proqnozlar əhalinin perspektiv sayının ümumi qiymətləndirilməsini xarakterizə edir.

Demoqrafik proqnozun düzgünlüyü onun informasiya bazası kimi çıxış edən əhalinin siyahıyaalınması, demoqrafik hadisələrin cari uçotu və əhalinin seçmə müayinələrinin məlumatlarının dəqiqliyindən, sosial-iqtisadi şəraitin kompleks təsiri altında demoqrafik proseslərin dəyişilməsinə dair fərziyyələrin əsaslandırılmasından, demoqrafik proqnozun müddətindən asılıdır. Təcrübədə qısa, orta və uzun müddətli proqnozlar fərqləndirilir.

Sosial-iqtisadi proseslərin planlaşdırılması və proqnozlaşdırılması üçün əhalinin gələcək sayının və tərkibinin, ilk növbədə cins və yaş üzrə tərkibinin proqnozu həlledici əhəmiyyətə malikdir. Demoqrafik proqnozlar:

- iqtisadi fəal əhalinin sayı və tərkibini, əmək bazarının formalaşması perspektivlərini, regional baxımdan işçi qüvvəsinin artıqlığını (çatışmazlığını), miqrasiya axınlarını tənzimlənməklə bu prosesi idarəolunan vəziyyətə gətirməyə,
- ərazi baxımından sosial və iqtisadi inkişaf planlarını, layihələrini və proqramlarını uzlaşdırmağa,
- demoqrafik vəziyyətin inkişaf perspektivlərini qiymətləndirməyə, demoqrafik və sosial siyasəti işləyib hazırlamağa, həyata keçirilən tədbirlərin xarakterini müəyyən etmək üçün elmi faktları təqdim etməyə və s. imkan verir.

Eyni zamanda demoqrafik proqnozlar müxtəlif əlamətlər üzrə əhalinin sayı və tərkibinin perspektiv dinamikasının, əhalinin müxtəlif xarakteristikaları və gələcəkdə onların dəyişmə istiqamətləri, keyfiyyət parametrlərinin qiymətləndirilməsi mənbəyi kimi çıxış edir.

Demoqrafik proqnozların mühüm xarakteristikası onların etibarlılığıdır. Demoqrafik proqnozların etibarlılığı ilkin demoqrafik informasiyanın dəqiqliyindən, tətbiq edilən fərziyyənin əsaslandırılmasından, proqnoz dövrünün uzunluğundan və s. asılıdır.



İnformasiya bazasından asılı olaraq əhalinin sayı və tərkibinin proqnozlaşdırılmasının statistik metodlarını üç qrupa - əhalinin sayının retrospektiv təhlilinə, əhalinin təbii və mexaniki hərəkəti göstəricilərinə və dinamika sıralarının modelləşdirilməsinə əsaslanan proqnozlara ayırmaq olar.

Demoqrafik proqnozlaşdırma təcrübəsində amerika demoqrafı P.K.Uelpton (P.K.Whelpton, 1993) tərəfindən 1990-cı ildə işlənib hazırlanmış yaşların hərəkəti yaxud komponent metoduna (Cohort Component Method) daha çox üstünlük verilir. Bu metodun tətbiqi bir necə mərhələdən ibarətdir. Belə ki, əhalinin doğum göstəriciləri üçün yekun nəsilvermə əmsalı və uşaq doğularkən ananın orta yaşı, əhalinin ölüm göstəriciləri üzrə doğulanda gözlənilən ömür uzunluğu və uşaq ölümü əmsalı, miqrasiya axınları üçün miqrasiyanın xalis saldosu yaxud ümumi miqrasiya əmsalı hesablanır.

Yaşların hərəkəti metodu əhalinin komponentlərinin - doğulanların, ölənlərin, ölkəyə gələnlərin və gedənlərin sayının dəyişməsinin nəticəsində onun sayının dinamikasını öyrənir. Hər bir ünsür üzrə proqnozlaşdırma ayrılıqda həyata keçirilir. Deməli, bu metod həyata keçirilən proqnozun ciddi analitik əsaslandırılmasını, əsas demoqrafik göstəricilərin dəyişmə meylinin və qanunauyğunluğunun, onların sosial-iqtisadi hadisələrlə əlaqəsininin anlanılmasını tələb edir.

Komponent metodu yalnız əhalinin ümumi sayını deyil, həm də onun cins və yaş üzrə bölgüsünü də əldə etməyə imkan verir.

Əksər demoqrafik proqnozlarda əhalinin sayının dinamikasını müəyyən edən əsas proseslər kimi doğum, ölüm və miqrasiya göstəricilərinin dəyişməsi çıxış edir.

Demoqrafik proqnozların əsaslığı və faydalılığı əhalinin ilkin sayının qiymətləndirilməsinin etibarlılığından və əhalinin perspektiv hərəkəti parametrlərinin qabaqcadan təxmin edilməsi dəqiqliyindən asılıdır.

Fikrimizcə, yaxın və orta perspektivdə ölkədə doğum, ölüm və miqrasiya proseslərinin dinamikasına daha cox təsir göstərə bilən amillərə sabit iqtisadi artımı, cəmiyyətin siyasi sabitliyini, əhalinin həyat səviyyəsinin və keyfiyyətinin artmasını, ailələrin ənənəvi əsaslarının qorunub saxlanmasını, səhiyyə sisteminin təkmilləşdirilməsi və səhiyyə təcrübəsində elmin müasir nailiyyətlərinin tətbiq edilməsini, təhsil səviyyəsinin artırılmasını, ekoloji vəziyyətin yaxşılaşdırılmasını, texnologiyanın inkişafını, yeni enerji mənbələrindən, həmçinin informasiya və kommunikasiya vasitələrindən istifadə edilməsini, əhalinin ictimai davranışının sağlamlaşdırılmasını və s. aid etmək olar.

Qeyd etmək lazımdır ki, demoqrafik proqnozların işlənib hazırlanması metodlarına, demoqrafik proseslərin perspektiv inkişaf variantlarının qurulmasına çoxlu sayda elmi araşdırmaların həsr olunmasına baxmayaraq bu az tədqiq olunmuş problem olaraq qalır. Bununla yanaşı elmi cəhətdən əsaslandırılmış proqnozların və inkişaf variantlarının işlənib hazırlanması mərhələlərinin və prinsiplərinin formalaşdırılmasına coxsaylı cəhdlər edilir. Bu zaman əksər

müəlliflər proqnoz və inkişaf variantlarının işlənib hazırlanmasının müasir vəziyyəti xarakterizə edən məlumatların toplanması və təhlilini, onun dəyişməsinə təsir edən amillərin müəyyən edilməsini, onlardan daha vacibinin seçilməsini və bu əsasda əhalinin gələcək inkişaf variantının işlənib hazırlanmasını tələb etməsində eyni fikirdədir.

Demoqrafik proseslərin mümkün inkişaf istiqamətlərinin formalaşdırılması müxtəlif mərhələləri özündə birləşdirir.

Beləliklə, proqnozlaşdırmanın statistik metodları əhalinin sayının dinamikasının tədqiqində fəal istifadə edilir. Bu metodlar icərisində ən geniş yayılmışı reqressiya modelləri və yaşların hərəkəti metodudur. Bu metodlara geniş tətbiq edilmə dairəsi və proqnozların nisbətən yüksək etibarlılıq dərəcəsi xasdır. Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, araşdırılan metodların hər birinin bu və ya digər məhdudiyyəti vardır. Xüsusilə, proqnoz verilən dövr ərzində orta illik mütləq artımın və orta illik artım sürətinin sabitliyi kimi metodoloji tələb ekstrapolyasiya metodunun tətbiqi sferasını məhdudlaşdırır. Statistik modelləşdirmənin çatışmazlığı ilk növbədə reqressiya təhlili üçün xarakterik olan statistik ehtimallarla və məhdudiyyətlərlə bağlı olmasıdır. Qeyd edək ki, meyllərin (trendlərin) qeyri-sabitliyi demoqrafik proqnozların etibarlılığının azaldılmasının yeganə səbəbi deyildir. Mənfi cəhətlərdən biri toplanılan informasiyanın kifayətləndirici olmamasıdır. Məsələn, bu gün statistika xidməti tərəfindən doğumun növbəliliyi üzrə sistemli uçotun aparılmamasına, ölüm cədvəlinin tərtib edilməməsinə və s. rast gəlmək olar. Bu istiqamətlərdə informasiyanın olmaması praktiki olaraq doğumun determinantlarını aşkar etməyə və onun dinamikasını, əhalinin sayı və tərkibinin etibarlı proqnozlarını qurmağa imkan vermir. Eyni zamanda proqnozlaşdırmada doğum, ölüm, cins-yaş quruluşu, miqrasiya kimi demoqrafik xarakteristikaları nəzərə almağa imkan verən komponent metodunun köməyi ilə əhalinin perspektiv sayının hesblanması ölüm cədvəlinin qurulmasını tələb edir. Fikrimizcə, belə şəraitdə mühüm informasiya mənbəyi kimi əhalinin xüsusi təşkil edilmiş seçmə tədqiqatı, sosioloji sorğuların materialları ola bilər.

Tədqiqatən gedişində müəllif tərəfindən ölkədə demoqrafik proseslərin statistik informasiya bazasının təkmilləşdirilməsinə və kompleks statistik qiymətləndirilməsinin təmin edilməsinə yönəldilən elmi baxımdan əsaslandırılmış və ümumiləşdirilmiş nəticə və tövsiyyələr formalaşdırılmışdır.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər müəllifin dərc olunmuş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**

1. S.İ.Abdullayeva. Azərbaycan Respublikasinda əhalinin təkrar istehsalının müasir vəziyyəti. 2011-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın tezisləri, “İqtisad Universiteti” nəşriyyatı, Bakı 2012.

2. S.İ.Abdullayeva. Azərbaycan Respublikasında demoqrafik vəziyyətin



statistik qiymətləndirilməsinin bəzi məsələlə. 2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın tezisləri, “İqtisad Universiteti” nəşriyyatı, Bakı 2013.

3. S.İ.Abdullayeva. Demoqrafik inkişafda təbii artımın rolunun statistik öyrənilməsi. 2013-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın tezisləri, “İqtisad Universiteti” nəşriyyatı, Bakı 2014.

4. S.İ.Abdullayeva. Nigahın bağlanmasının dinamikasının statistik təhlili. Gənc alimlərin əsərləri. Jurnal 8, Bakı 2013.

5. S.İ.Abdullayeva. Azərbaycan Respublikasında əhalinin təbii hərəkətinin statistik qiymətləndirilməsi. Beynəlxalq hüquq və inteqrasiya problemləri. №3(35) BDU, Bakı 2013.

6. S.İ.Abdullayeva. Azərbaycanda nigah və boşanmanın statistik təhlili. Statistika və cəmiyyət elmi-praktiki konfrans. Bakı 2014.

7. С.И.Абдуллаева. Статистическое изучение проблем брачности в Азербайджане. Международный научно-практическая конференция. Беларусь 2014.

8. С.И.Абдуллаева. Статистическое изучение смертности в Азербайджане. Международный научно-практическая конференция. Грузия 2014.

9. S.İ.Abdullayeva. Azərbaycan Respublikasında əhalinin ölüm faktorunun statistik təhlili. Doktorantların və Gənc tədqiqatçıların XIX respublika elmi konfransı. ADİU. Bakı 2015.

10.S.İ.Abdullayeva. Əhalinin demoqrafik durumu göstəricilərinin statistik təhlilinin əsas istiqamətləri. Gənc tədqiqatçıların III beynəlxalq elmi konfransı. Qafqaz Universiteti. Bakı 2015.

11.S.İ.Abdullayeva. Əhali haqqinda statistik informasiya mənbələrinin müasir vəziyyəti və təkmilləşdirilməsi məsələləri. AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər toplusu, №5, Bakı, 2015.

12.S.İ.Abdullayeva. Sosial-iqtisadi hadisələrin demoqrafik göstəricilərə təsirinin statistik tədqiqi. Azərittifaq, Azərbaycan Kooperasiya Universiteti, elmi praktiki jurnal №4(47), Bakı 2017.

13.С.И.Абдуллаева. Статистическое изучение развития демографической ситуации в Азербайджане. Журнал “Экономика и статистика” №4, Казахстан 2017.

14.S.İ.Abdullayeva. Demoqrafik proseslərə müxtəlif amillərin təsirinin reqressiya-korrelyasiya təhlili.“Statistika xəbərləri”№1, Bakı 2018.



***Абдуллаева Самира Интигам гызы***

**Статистическая оценка и прогнозирование демографической ситуации в Азербайджанской Республике**

**Р Е З Ю М Е**

Диссертация состоит из введения, трех глав, выводов и списка использованной литературы.

Во введении диссертации обоснована актуальность темы, даны цель и задачи, объект и предмет, научная новизна и практическая значимость исследования.

В первой главе диссертации называемой «Теоретико-методологические вопросы статистического исследования демографических процесссов» рассмотрены роль и теоретические основы статистики в формировании демографической политики страны, источники и особенности статистической информации демографических процессов, а также система статистических показателей и методика их исчисления.

Во второй главе диссертации называемой « Статистическое исследование тенденции развития и динамики демографических процессов в Азербайджанской Республике» на основе статистических данных осуществляется статистическая оценка численности, состава и динамики ЕСтественного движения населения страны а также заключение и расторжения браков.

В третей главе диссертации называемой «Направления совершенствования статистической оценки демографических процессов в Азербайджане» рассмотрены приоритетные вопросы статистической оценки воспроизводства населения страны, проведена статистическая оценка влияния многочисленных факторов, как демографических так социально-экономических на демографические процессы, также здесь приведены теоретические и практические аспекты моделирования и прогнозирования численности населения страны.

Результаты исследования обобщены, научно обоснованы и в заключении работы представлены конкретных выводов и предложений.



***Samira Intiqam Abdullayeva***

***Statistical assessment and forecasting of the demographic situation in the Republic of Azerbaijan***

**SUMMARY**

The thesis consists of an introduction, three chapters, conclusions and bibliography.

In the introduction of the thesis, the relevance of the topic is substantiated, the purpose and the task, the object and the subject, the scientific novelty and practical significance of the research are given.

In the first chapter of the thesis, called “Theoretical and methodological issues of statistical research of demographic processes”, the role and theoretical foundations of statistics in shaping a country's demographic policy, sources and features of statistical information of demographic processes, as well as a system of statistical indicators and methods of their calculation are considered.

In the second chapter of the thesis, called “Statistical study of the development trend and dynamics of demographic processes in the Republic of Azerbaijan”, statistical statistics are used to estimate the size, composition and dynamics of the natural movement of the country’s population, as well as marriages and divorces.

The third chapter of the thesis, called “Directions for Improving Statistical Evaluation of Demographic Processes in Azerbaijan”, considered priority issues of statistical evaluation of the country's population reproduction, carried out a statistical evaluation of the influence of numerous factors, such as demographic and socioeconomic factors on demographic processes; forecasting the population of the country.

The results of the study are summarized, scientifically substantiated and presented in the conclusion of the work specific theoretical conclusions and practical recommendations.

Formatı 60x84 1/16. Həcmi 1 ç.v.
Sifariş 463. Ofset kağızı №1. Sayı 100.

"AA - Poliqraf" istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilnişdir.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

**НАУЧНЫЙ ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ
ЭКОНОМИЧЕСКИХ ИССЛЕДОВАНИЙ**

*На правах рукописи*

**АБДУЛЛАЕВА САМИРА ИНТИГАМ ГЫЗЫ**

# СТАТИСТИЧЕСКАЯ ОЦЕНКА И ПРОГНОЗИРОВАНИЕ ДЕМОГРАФИЧЕСКОЙ СИТУАЦИИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

5302.01 – "Эконометрия; Экономическая статистика"

**АВТОРЕФЕРАТ**

диссертация на соискание ученой степени
доктора философии по экономике

**БАКУ - 2018**